AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ
LƏNKƏRAN DÖVLƏT UNİVERSİTETİ
PUBLİK HÜQUQİ ŞƏXSİ

L D U
1 9 9 2
LƏNKƏRAN DÖVLƏT UNİVERSİTETİ

Lənkəran Dövlət Universitetinin Elmi Şurasının
" 11 " mart 2026-cı il tarixli iclasında
(protokol № 07) təsdiq edilmişdir.

Rektor _____ prof. Natiq İbrahimov

MƏZUNLARLA İŞ VƏ KARYERA BÖLMƏSİNİN ƏSASNAMƏSİ

Lənkəran – 2026

1. ÜMUMİ MÜDDƏALAR

1.1. Məzunlarla iş və karyera bölməsi (bundan sonra - bölmə) Lənkəran Dövlət Universitetinin (bundan sonra – Universitet) tərkibində fəaliyyət göstərən, məzunların məşğulluq fəaliyyətinin izlənməsini təmin edən, məzunların karyera imkanlarının genişləndirilməsinə dəstək göstərən struktur bölmədir.

1.2. Bu Əsasnamə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 30 dekabr tarixli 489 nömrəli Qərarı ilə təsdiq olunmuş "Ali və orta ixtisas təhsili müəssisələri üzrə tələbələrinin ixtisas üzrə təcrübə keçmə Qaydası"na və Universitetin Nizamnaməsinə uyğun hazırlanmışdır.

1.3. Bölmə öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının "Təhsil haqqında", "Elm haqqında" qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Elm və Təhsil Nazirliyinin Kollegiya Qərarlarını, əmr, təlimat və sərəncamlarını, Universitetin Nizamnaməsini, Elmi Şuranın qərarlarını, rektorun əmr, sərəncam, göstərişlərini və bu Əsasnaməni rəhbər tutur.

1.4. Bölmə Əsasnamə ilə müəyyən olunmuş funksiyaların yerinə yetirilməsi prosesində Tədrisin təşkili və idarə olunması mərkəzi və onun digər struktur bölmələri ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

2. BÖLMƏNİN FƏALİYYƏTİNİN TƏŞKİLİ

2.1. Bölmənin strukturu və işçilərinin sayı Rektor tərəfindən müəyyən və təsdiq edilir.

2.2. Bölmənin fəaliyyətinə bölmə rəhbəri rəhbərlik edir.

2.3. Bölmə rəhbəri və digər işçilər Rektor tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir.

2.4. Bölmənin rəhbəri:

2.4.1. Bölmənin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

2.4.2. Tabeliyində olan əməkdaşlar arasında iş bölgüsü aparır, onların fəaliyyətini əlaqələndirir, onların əmək və icra intizamına riayət etmələrinə nəzarət edir;

2.4.3. Bölmə üzrə müzakirə edilməli məsələləri müəyyən edir və bu barədə təklifləri mərkəz direktoruna təqdim edir, bu əsasnamədə göstərilən normativ-hüquqi aktların bölmə tərəfindən vaxtında və lazımi səviyyədə icrasını təmin edir;

2.4.4.Bölmənin funksiyalarını yerinə yetirmək üçün səlahiyyətləri daxilində Universitetin digər strukturlarından, məzunlardan, əmək bazarından məlumatlar alır;

2.4.5. Bölmə üzrə daxil olan məktub, ərizə, şikayət və təkliflərə qanunvericilikdə nəzərdə tutulmuş qaydada və müddətdə baxılmasını təşkil edir;

3. BÖLMƏNİN MƏQSƏDİ

3.1. Bölmənin fəaliyyətinin əsas məqsədi universitet məzunları ilə davamlı və sistemli əlaqələrin qurulmasını təmin etmək, onların əmək bazarına inteqrasiyasını dəstəkləmək, peşəkar inkişaf imkanlarını genişləndirmək və universitet ilə sektorlar arasında dayanıqlı əməkdaşlıq mexanizmi formalaşdırmaqdan ibarətdir. Onların bilik və bacarıqlarının əmək bazarının tələblərinə uyğun şəkildə inkişaf etdirilməsinə şərait yaratmaq, potensial inkişafına,

karyera imkanlarının genişləndirilməsinə, vakant iş yerlərinə cəlb olunmalarına dəstək göstərməkdir.

4. BÖLMƏNİN FUNKSİYALARI

Bölmə aşağıdakı əsas funksiyaları həyata keçirir:

4.1. Məzunların karyera imkanlarının genişləndirilməsi üçün tədbirlər planının hazırlanması və icrası;

4.2. Məzunların əmək fəaliyyətinin uçota alınması və ona nəzarət;

4.3. Gənclərin karyera və peşə seçimlərini dəstəkləmək;

4.4. İşəgötürənlərlə sıx əlaqələrin qurulması və vakansiyaların izlənilərək məzunlarla bölüşdürülməsi;

4.5. Məzun sorğularının həyata keçirilməsi;

4.6. Bölmə universitet məzunlarının vahid elektron məlumat bazasını formalaşdırır, onların məşğulluq vəziyyətini mütəmadi olaraq monitorinq edir, toplanmış məlumatları təhlil edərək hesabat hazırlayır və rəhbərliyə təqdim edir.

4.7. Bölmə dövlət və özəl sektor nümayəndələri ilə əməkdaşlıq əlaqələri qurur, əmək yarmarkaları, tədbirləri təşkil edir.

4.8. Bölmə məzunların peşəkar uğurlarının izlənməsi və tanıdılması istiqamətində fəaliyyət göstərir, onların nailiyyətlərini universitet ictimaiyyətinə təqdim etməklə ali təhsil müəssisəsinin nüfuzunun artırılmasına töhfə verir.

4.9. Bölmə öz funksiyalarını həyata keçirmək, Universitet rəhbərliyinin əmr, sərəncam və göstərişlərini yerinə yetirmək üçün mövcud qanunvericilik çərçivəsində digər vəzifələri də yerinə yetirə bilər.

5. BÖLMƏNİN VƏZİFƏLƏRİ

5.1. Məzun bazasının yaradılması və yenilənməsi;

5.2. Məzunlarla mütəmadi əlaqələrin qurulması, onların məşğulluq vəziyyətinin izlənilməsi;

5.3. Əmək bazarı ilə əlaqələrin qurulması, əmək yarmarkalarının təşkil olunması;

5.4. Məzunlarla görüşlərin təşkil olunması, onların karyera inkişafı üzrə təcrübələrinin paylaşılması və tələbələrlə qarşılıqlı əlaqənin gücləndirilməsini təmin etmək;

5.5. Sosial şəbəkə və rəsmi platformalar üzərindən təlim və inkişaf imkanları, layihələr və digər məlumatların çatdırılması;

5.6. Dövlət məşğulluq agentliyi ilə mütəmadi əlaqələrin qurulması və sorğuların keçirilməsi.

6. BÖLMƏNİN HÜQUQLARI

6.1. Bölmə öz vəzifə və funksiyalarını yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

6.1.1. Bu əsasnamə ilə müəyyən edilmiş funksiya və vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar səlahiyyətləri daxilində Universitetin strukturlarına müvafiq qaydada sorğular ünvanlamaq va onlardan müvafiq məlumatları va sənədləri almaq;

6.1.2. Karyera imkanlarının təkmilləşdirilməsi üçün təkliflər hazırlamaq və ya hazırlanmasında iştirak etmək;

6.1.3. Rektorun əmr və göstərişlərinə eləcə də fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

7. BÖLMƏNİN MƏSULİYYƏTİ

7.1. Bölmənin əməkdaşları qüvvədə olan qanunvericiliyə əsasən aşağıdakı hallar üçün inzibati və intizam məsuliyyəti daşıyır:

7.1.1. Bölməyə həvalə edilmiş vəzifə və funksiyaların yerinə yetirilməməsi, müəyyən olunmuş müddət keçdikdən sonra və ya keyfiyyətsiz yerinə yetirilməsi;

7.1.2. Universitetin daxili intizam qaydalarına, əmək və tədris intizamına riayət etmədikdə;

7.1.3. Universitet rəhbərliyinin əmr, sərəncam və göstərişlərini yerinə yetirmədikdə;

7.1.4. Bölmənin əməkdaşlarının məsuliyyət dərəcəsi onların vəzifə təlimatları ilə müəyyən edilir.

8. YEKUN MÜDDƏALAR

8.1. Əsasnamə universitetin rəhbərliyi tərəfindən təsdiq olunduğu gündən qüvvəyə minir;

8.2. Əsasnaməyə dəyişikliklər müəyyən edilmiş qaydada edilə bilər;

8.3. Əsasnamədə nəzərdə tutulmayan məsələlər Universitetin Nizamnaməsi və mövcud qanunvericilik ilə tənzimlənir.